# DOST mərkəzləri müasir Azərbaycanın siması kimi

**Təkmil islahatların şərtləndirdiyi iqtisadi tərəqqi güclü sosial siyasətin həyata keçirilməsini stimullaşdırır. Minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə edir. Şəhid ailələrinin problemlərinin həlli, sosial müavinətlərin artırılması minlərlə insana şamil olundu.**




Problemli kreditlərin, eyni zamanda, evlərin sənədləşdirilməsi məsələlərinin öz müsbət həllini tapması üçün imzalanan sərəncamlar da bir daha bu reallığı ortaya qoydu ki, dövlətimizin siyasətinin əsasında vətəndaşların yüksək rifahının təmin olunması dayanır. “Heç bir ölkədə bu dərəcədə sosialyönümlü, vətəndaşın marağını güdən addım olmamışdır” söyləyən dövlətimizin başçısı İlham Əliyev qeyd edir ki, bütün bu sosial paket təqribən 3 milyona yaxın insanı əhatə edir və bir daha niyyətimizi göstərir.

2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından uğurlu il olacaq. Bu əminliyə əsas verən əsas amillərdən biri də idarəetmə sistemində təkmilləşmə, yeni texnologiyaların tətbiqidir. Təkrarən də olsa, beynəlxalq səviyyəli tədbirlərdə səslləndirilən bu fikri bir daha qeyd etmək istərdik ki, yoxsul deyil, yaxşı idarə olunmayan ölkələr var. Azərbaycanda idarəçilik sistemində təkmilləşmə, iqtisadi strategiyanın dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə uyğun müəyyənləşdirilməsi ölkəmizdə təbəqələşmə prosesinin baş verməməsini şərtləndirib. Neft-qaz gəlirlərinin idarə olunmasında şəffaflığın yüksək səviyyədə qorunması mühüm sosial-iqtisadi layihələrin həyata keçirilməsinə zəmin yaratmışdır ki, bu da öz növbəsində bu günümüzün əsas çağırışlarından olan yeni hədəflərə inamla irəliləməyə əsas verir. Azərbaycanı qarşıdakı illərdə yüksək gəlirli ölkələr sırasında görmək, ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaq əsas hədəflərdəndir. Bu hədəflər öz növbəsində təkmilləşməni, yeniliyi bir tələb kimi ortaya qoyur. Daim ilklərə imza atan Azərbaycanın dünyaya səs salan “ASAN xidmət”, “ABAD”, “DOST” kimi layihələri də bu reallığa əsas verir ki, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə süründürməçilik hallarının qarşısının alınması və vətəndaş məmnunluğunun artırılması prioritet məsələlərdəndir. Dövlətimizin başçısı İlham Əliyevin 9 avqust 2018-ci il tarixli “Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanın imzalanmasından ötən dövr ərzində görülən işlərə diqqət yetirdikdə sosial müdafiənin gücləndirilməsinə verilən önəmi daha aydın görmək mümkündür. O da məlumdur ki, həmin fərmana əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi” publik hüquqi şəxsin (DOST Agentliyi) yaradılması nəzərdə tutulmuşdur. 2019-cu il mayın 9-da DOST Agentliyinin yaradılması və ilk DOST mərkəzinin istifadəyə verilməsi dövlətimizin sosial xidmətlər sahəsində yeniliklərinə, davamlı innovativ tədbirlərinə işıq saldı. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, “bir pəncərə”dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.

İlk DOST mərkəzinin açılışında dövlətimizin başçısı İlham Əliyev bir daha sosial islahatların dövlət siyasətinin əsasını təşkil etdiyini önə çəkərək, eyniadlı agentliyin yaradılmasını bu istiqamətdə mühüm addım kimi dəyərləndirmişdir. Cənab İlham Əliyev, eyni zamanda, bildirmişdir ki, DOST mərkəzləri müasir Azərbaycanın simasını əks etdirir: “DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır. Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir. Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin. “

2019-2025-ci illərdə Bakıda və regionlarda 31 DOST mərkəzinin istifadəyə verilməsi hədəflənib. 21 mərkəz “bir pəncərə” prinsipi əsasında 2,8 milyon şəxsə əmək, məşğulluq, əlillik, sosial təminat sahələri üzrə 126 növdə xidmət göstərəcək. Hər mərkəzdə təqribən 100-150 iş yeri olacaq, həmçinin könüllülər qrupu fəaliyyət göstərəcək. Azərbaycan brendi kimi tanınan DOST layihəsi beynəlxalq aləmdə uğurlu yenilik, təkmil bir təcrübə kimi etiraf olunur.

İlk DOST mərkəzinin istifadəyə verilməsindən ötən iki aydan artıq dövrdə 20 min vətəndaş bu mərkəzə müraciət edib. Bu gün artıq 126 xidmətin hər biri DOST mərkəzində göstərilir. Cari ilin sonunadək növbəti Mərkəzin açılışı istiqamətində ciddi səylər göstərilir. Daha 3 mərkəzin açılması üçün işlər görülür. Dövlətimizin başçısı İlham Əliyevin sədrliyi ilə keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirədə bu hədəf açıqlanmışdır ki, ilin sonuna və növbəti ilin birinci rübünə 3 mərkəz də açılacaq və Bakının 80 faizini əhatə etmiş olacaq. Regionlarda da DOST mərkəzlərinin açılması sahəsində iş başlayacaq. DOST mərkəzinin, DOST konsepsiyasının bir mexanizmi də elektron və onlayn xidmətlərin göstərilməsi məsələsidir. Bununla bağlı DOST mərkəzində çox müasir “Çağrı mərkəzi” qurulub. Həmin müşavirədə qeyd olunmuşdur ki, vətəndaşlardan gələn müraciətlərin sayından və onların məmnunluq səviyyəsindən görünür ki, “Çağrı mərkəzi” vasitəsilə bir çoxları öz xidmətlərini əldə edir, hətta mərkəzə gəlməyə də ciddi ehtiyac duymurlar.

DOST mərkəzinin Azərbaycanın bir brendinə çevriləcəyi ilə bağlı səsləndirilən fikirlər təbii ki, ölkə Prezidenti İlham Əliyevin bu çağırışından irəli gəlir- Əldə olunan uğurlarla kifayətlənməməli, daim irəliyə baxmalıyıq.

Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycanın biri-birindən əhəmiyyətli beynəlxalq tədbirlərə ev sahibliyi etməsi də hər sahədə yenilikçi, zəngin təcrübəyə malik olması ilə əlaqədardır. 2019-cu ilin iyununda dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndənin qatıldığı BMT-nin Dövlət Xidmətləri Forumunun keçirilməsində də məqsəd dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual məsələlər üzrə müzakirələrin aparılması, dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsi idi.

Cari ilin iyulunda BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda da Azərbaycanın dünyaya səs salan brendlərindən, o cümlədən DOST layihəsindən geniş bəhs olunmuşdur. BMT Baş katibinin inkişaf və əlaqələndirmə məsələləri üzrə müşaviri Robert Piper Azərbaycanda aparılan sosial-iqtisadi islahatları və ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində göstərdiyi səyləri yüksək dəyərləndirərək, regionda və MDB məkanında ilk olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunduğunu bildirmişdir.

Yeni iqtisadi və sosial çağırışların müzakirə olunduğu, ən əsası sosial dövlət kimi tanındığı Azərbaycanda bu ilin mayında keçirilən Beynəlxalq Sosial Təminat Assosiasiyasının Avropa Regional Sosial Təminat Forumu da iştirakçı ölkələrin, o cümlədən Azərbaycanın malik olduğu imkanların təqdimatında əhəmiyyətli rol oynadı. 55 ölkənin sosial təminat agentliklərinin rəhbərlərinin iştirakı ilə keçirilən bu Forumda beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan Azərbaycanın Avropa qurumları ilə əməkdaşlığının perspektivləri geniş müzakirə olunaraq, dövlətimizin başçısı İlham Əliyevin təkmil siyasəti nəticəsində ölkəmizdə digər sahələrdə olduğu kimi, sosial təminat sahəsində də uğurlu nəticələr əldə olunduğu, sosial müdafiə sisteminin təkmilləşdiyi, müasir, şəffaf idarəetmə əsasında hədəflərə yüksək səviyyədə nail olunduğu xüsusi qeyd olunmuşdur. Həyata keçirilən islahatlar Avropanın müvafiq təşkilatları, eyni zamanda, ölkələri ilə əməkdaşlığa geniş imkanlar açır. Keçirilən Forum da bunun bariz nümunəsi kimi qeyd olunmuşdur. Beynəlxalq Sosial Təminat Assosiasiyasının Prezidenti Yoakim Bröyer bu gün Avropa ölkələrinin sosial təminat sistemlərində idarəçilik mexanizmlərinin əsas çağırışlara uyğun təkmilləşdirilərək mükəmməl şəkildə qurulduğunu, problemlərin həllində qarşılıqlı əməkdaşlığın, təcrübə mübadiləsinin əhəmiyyətini önə çəkərək, Azərbaycanın yeniliklərinin ölkə kimi əldə etdiyi uğurları təqdir etmiş, ölkəmizlə əlaqələrin inkişafı üçün möhkəm bazanın olduğunu diqqətə çatdırmışdır. Sosial təminat sistemlərində aktual məsələlərə innovativ yanaşmaların təqdim edilməsi və təcrübələrin bölüşməsi qarşıya qoyulan hədəflərə geniş yol açır. Y.Bröyer Azərbaycanda əldə olunan sosial-iqtisadi nailiyyətləri, sosial sahədə innovativ yenilikləri yüksək dəyərləndirmiş, qarşıdakı illərdə bu əməkdaşlığın daha da genişləndirilməsi üçün səylərin daha da artırılacağına, ilk DOST mərkəzinin ziyarətindən məmnunluğunu, həmçinin qısa müddət ərzində onun coğrafiyasının daha da genişləncəyinə inamını ifadə etmişdir.

Göründüyü kimi, Azərbaycanın yenilikləri yalnız ölkə deyil, beynəlxalq ictimaiyyət tərəfindən də rəğbətlə qarşılanır. DOST sözün həqiqi mənasında ölkə vətəndaşlarının yaxın dostuna çevrilir. Ölkə Prezidenti İlham Əliyev bildirir: “Bundan sonra dayanıqlı inkişafı təmin etmək üçün biz fəal işləməliyik və qəbul olunmuş qərarlar icra edilməlidir. Hesab edirəm ki, bu, qarşıda duran ən vacib məsələlərdən biridir. Çünki bəzi hallarda qərarlar qəbul edilir, sərəncamlar imzalanır, ancaq onların reallaşması yubanır. Ona görə, bundan sonrakı dövrdə mütləq bu sahəyə daha ciddi diqqət göstərilməlidir ki, qəbul edilmiş qərarlar, qanunlar, imzalanmış sərəncamlar həyata keçirilsin.” Beynəlxalq səviyyəli tədbirlərdə də tez-tez səsləndirilən “Dayanıqlı İnkişaf Məqsədləri Azərbaycanda uğurla reallaşır” fikri də keçilən yola və hədəflərin gerçəkləşdirilməsi yönümündə göstərilən səylərə əsaslanır. İnnovasiyalar ölkəsi kimi nüfuz qazanan Azərbaycanın qarşısında yeni imkanlar, yeni üfüqlər açır.

**Nüsrət Məmmədov,**
***“İki sahil”***

***Yazı Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir***